**Akademik Tarih ve Düşünce Dergisi**

**Published by** https://dergipark.org.tr/tr/pub/atdd

**Autumn 2022 /9-3** https://doi.org/10.46868/atdd.231

# Bayram Mədəniyyəti Folkor və Etnokulturoloji Kontekstdə

**Dilber Zeynalova***

**ORCID: 0000-0002-4507-0745**

**Öz**

Məqalədə bir sıra tanınmış ədəbiyyatşünaslara, sosioloqlara istinad edilərək, bayram mədəniyyəti sosial, mədəni-tarixi fenomen olaraq araşdırılır. Xüsusilə bayram mədəniyyətinin folklor və etnokulturoloji tərəflərinə diqqət yönəldilir. Buna görə də bayramın folkor mahiyyətindən, Türk dünyasında geniş yayılmış Novruz və Qurban bayramlarının tarixi-etnoqrafik səciyyəsindən bəhs olunur. Məqalədə, həmçinin, sovet dövründə milli bayramların keçirilməsinə qarşı mübarizə, milli bayramlara qarşı aparılmış ideoloji-sosial eksperimentlər, onların iflasa uğraması da vurğulanır. Qeyd olunur ki, bayramın ənənələr sisteminin məhvi nəsillər arasında mədəni əlaqələrin zəifləməsinə, ənənə-varislik əlaqələrinin qırılmasına, sosial-mədəni məkanın birliyinin məhv olmasına gətirib çıxarda bilər. Məqalədə bayram mədəniyyətndən etnik özümlüyün qorunub saxlanmasını təmin edən birləşdirici gücə malik təbii bir proses olaraq bəhs olunur. Eyni zamanda xalqın tarixində əhəmiyyətli rol oynamış, amma unutdurulmuş, müstəqillik əldə etdikdən sonra yenidən yaddaşlarda oyanmış Bakının Qurtuluşu və Qarabağ müharibəsindən sonra yaranmış zəfər günündən, onların tarixi yaddaşın qorunmasında oynadığı roldan bəhs olunur. Məqalədə qeyd olunur ki, tarixi və mədəni yaddaşın yeni variantlarının yaradılması və bayramın köməyi ilə yaddaşda möhkəmlənməsi o zaman baş tutacaqdır ki, ənənədən gələn tarixi-mədəni varislik yalnız rəsmi bayram təqvimində deyil, həm də ictimai şüurda möhkəmlənəcəkdir.

**Açar sözlər:** Bayram mədəniyyəti, folkor, tarixi yaddaş, Novruz bayramı, Qurban bayramı

**Gönderme Tarihi: 01/02/2022** **Kabul Tarihi:01/07/2022**

* *Doç.Dr., Hazar Üniversiteti, Diller ve Edebiyyatlar Depatamentinin Başkanı, Bakü-Azerbaycan, dzeynalova@khazar.org*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
ZEYNALOVA, D., ‘’ Bayram Mədəniyyəti Folkor və Etnokulturoloji Kontekstdə”, *Akademik Tarih ve Düşünce Dergisi*, C. 9, S. 3, 2022, s.561-574.

# Holiday Culture in the Folklore and Ethnocultural Context

**Dilbar Zeynalova***
**ORCID: 0000-0002-4507-0745**

**Abstract**

The article refers to a number of well-known literary critics and sociologists and explores the culture of festivity as a social, cultural and historical phenomenon. Therefore, in the article especially the folklore nature of the holiday, the historical and ethnographic features of the Novruz and Gurban holidays widespread in the Turkic world are discussed. The article also highlights the struggle against the celebration of public holidays during the Soviet era, the ideological and social experiments carried out against public holidays, and their failure. At the same time, the article deals with the liberation of Baku, which played an important role in the history of the people, but forced to forget and revived in memory after gaining independence and the Victory Day after the Karabakh war and their role in preserving historical memory. The article notes that the creation of new variants of historical and cultural memory and the deeply ingraining in the memories with the help of the holiday will occur when the historical and cultural heritage of the tradition is fixed not only in the official holiday calendar, but also in the public conscience.

**Keywords**: Holiday culture, folklore, historical memory, Novruz holiday, Eid Festival

**Received Date: 01/02/2022** **Accepted Date: 01/07/2022**

**Assos. Prof., Khazar University, Head of the Department of Languages and Literature, Bakı-Azerbaijan, dzeynalova@khazar.org.*

***You can refer to this article as follows:***
ZEYNALOVA, D., ‘’ Bayram Mədəniyyəti Folkor və Etnokulturoloji Kontekstdə”, *Academic Journal of History and Idea*, Vol. 9, Issue 3, 2022, p.561-574.

# ПраздничнаяКультурав Ғольклорном и Этнокультурном Контексте

**Дильбяр Зейналова***
**ORCID: 0000-0002-4507-0745**

**Резюме**

В статье, опираясь известным литературоведам и социологамиссследуется праздничнаякультура, как социальный, культурный и историческийфеномен. Особое внимание уделяется фольклорным и этнокультурным аспектам праздничной культуры.Такжеисследуетсяфольклорная сущностьи историко-этнографические особенности широко распространенных в тюркском мире праздников Новруз и Курбан,подчеркивается идеологические и социальные эксперименты, проводимые против национальных праздниковв советские времена и обих провале. Отмечается, что разрушение системы традиций праздника может привести к ослаблению культурных связей между поколениями. В статье праздничная культурарассматривается как естественный процесс, объединяющая в себе силы, которыеобеспечивает сохранение этнической идентичности. При этом обращается внимание на праздник Освобождения Баку, сыгравший важную роль в истории народа, но забытый и возрожденный после обретения независимости. В статье также подчеркиваетсярольпраздника Победы во второйКарабахской войнев сохранении исторической памяти.В статье отмечается, что создание новых вариантов историко-культурной памяти и укрепление ее через праздник будет происходить тогда, когда историко-культурное наследиеи традиции будут укрепляться не только в официальном праздничном календаре, но и в общественном сознании.

**Ключевые слова:** праздничная культура, фольклор, историческая память,Новрузбайрам, Курбанбайрам

**Получено: 01/02/2022** **Принято: 01/07/2022**

---

**Доцент, Университет Хазар, Заведующая Департаментом Языков и Литературы, Баку-Азербайджан, dzeynalova@khazar.org.*

***Ссылка на статью:***
ZEYNALOVA, D., ‘’Bayram Mədəniyyəti Folkor və Etnokulturoloji Kontekstdə”, *академическая история и мысль*, T.9, NO.3, 2022, C.561-574.

## Giriş

Əsrlər boyu bayram milli psixologiyaya və insanların həyat tərzinə çevrilmiş, hər bir xalqın mentalitetinə və dünya haqqında təsəvvürlərinin formalşmasına təsir etmişdir. Bayram, heç şübhəsiz, hər bir insanın və bütövlükdə cəmiyyətin həyatını əks etdirən xüsusi, çoxşaxəli bir sosial fenomendir. İnsanlar lap əskidən həyatlarındakı ən əhəmiyyətli mərhələləri müəyyən mərasimlərlə qeyd etmişlər. Bəşəriyyətin "uşaqlıq" dövrünə gedib çıxan bayramlar insan mədəniyyətinin ilkin formalarından biridir.Bayramın özünəməxsusluğu ondadır ki, hər bir insanınfərdiyyətiilə xarakterizə olunsa da, mədəni dəyər qazanır. Demək olar ki, bütün təriflər bayramı müəyyən bir formada tarixi yaddaşla bağlayır. Yan Assman, bayramı mərasimlə birlikdə mədəni yaddaşın əsas forması adlandırır və bunu yazısız mədəniyyətlərdə qrup identikliyinin qarantı hesab edir: "Mədəni yaddaşın ilkin təşkilati forması olan bayram sayəsində yazısız cəmiyyətlərdə zaman adi günlərə və bayramlara ayrılır və mədəni yaddaş sayəsində adi gündəlik həyat tamamlanır və ya genişlənir, insan həyatı mədəni təkamülün bütün mərhələlərindəikili zaman və ya ikili ölçü qazanır." [1] Əgər yazısız mədəniyyətlərdə, hər hansı bir tədbir, bayram yalnız şəxsi iştirakla təmin olunurdusa, inkişafın sonrakı mərhələlərində, müxtəlif əlaqə vasitələrinin texniki baxımdan təkmilləşdirilməsi, virtuallaşması ilə bu amil həlledici olmaya bilər. Müasir dövrdə bayram müəyyən dərəcədə özünün ilkin sakrallığınıitirsə də[2] insanın və cəmiyyətin ona olan ehtiyacı ortadan qalxmamışdır: bayram təqvimində dəyişikliklər baş verir, bir sıra bayramlar yox olur, yeni bayramlar yaranır. Doğrudur, bəzən yeni yaranan bayramlar cəmiyyət tərəfindən birmənalı qəbul olunmur, yalnız istirahət və əyləncə günlərinə çevrilir. Bunu, məsələn, 14 fevral Sevgililər Günü ilə bağlı müşahidə edə bilərik. Yaxud 1 May Həmrəylik Günü əhali arasında xüsusi bir canlanma yaratmır, mədəni yaddaşda heç bir assosiasiya oyatmır. Bizə elə gəlir ki, yeni baryamlara münasibətin birmənalı qarşılanmamasının səbəbi onun toplumun mədəni yaddaşında yer tutmaması ilə bağlıdır. "Xatırlamaq-keçmişi

---

[1]Yan Assman, *Kulturnaya Pamyat*, (Çev. M. Sokolskoy), Yazıki Slavyanskoy Kulturı, Moskva 2004, s.60.
[2]Gans Georg Gadamer, *Aktualnost Prekrasnoqo*, İsskustvo, Moskva 1991, s.155-165.

yaddaşda canlandırmaq, onu bu günün, müasirliyin bir hissəsi etməkdir."[3] Bu kontekstdə bayramın mədəni yaddaş forması kimi öyrənilməsi problemin həllində ən perspektivli araşdırmalardan biri ola bilər. Qloballaşma dövründə bayram mədəniyyəti etnik özümlüyün qorunub saxlanmasını təmin edə bilən birləşdirici gücə malik təbii bir proses kimi çıxış edə bilər. Təəssüf ki, 21-ci əsrin əvvəllərində bayram mədəniyyəti ayrı-ayrı səviyyələrə ayrılmış və kəskin şəkildə differensasiyaya məruz qalmışdır, xüsusilə gənclər arasında müxtəlif növ bayram fəaliyyətlərinə maraq artmışdır. Qeyd etmək lazımdır ki, bayram, onun ənənələr sisteminin məhvi nəsillər arasında mədəni əlaqələrin zəifləməsinə, ənənə-varislik əlaqələrinin qırılmasına, sosial-mədəni məkanın birliyinin məhv olmasına gətirib çıxarda bilər. Sovetdən qalma mərasimlərə münasibət və ümumi mədəni prosesdəki yeri ilə bağlı qeyri-müəyyənlik, müxtəlif növ lokal "əlavələr", bayram sayının artması yaxşı perspektiv vəd etmir. Bundan əlavə, müasir bayram mədəniyyətinin xarakterik xüsusiyyətlərindən biri, insanın mənəvi aləminə heç bir şəkildə təsir etməyən, adi insani münasibətlərdən kənar, yalnız əyləndirmək ehtirası istiqamətinə meyllənməsidir.Bütün bunlar, şəhərlərin mədəni mühitini yaradan lokal bayramların tarixi və mədəni cəhətdən yenidən qurulmasına, bayramlarda əks olunan plüralizm və submədəniyyətləin çoxluğu vahid bayram konsepsiyasına sistematik baxış tələb edir.

### 1-Bayram mədəni yaddaş kontekstində

Mədəni yaddaşın sakral mahiyyətə malik olduğunu vurğulayan Assman qeyd edir ki: "Bayram, bir çox digər funksiyalarla yanaşı, yaddaşda kök salmış keçmişi canlandırmağa xidmət edir. Keçmişə belə bir müraciət xatırlayan qrupun öz identikliyini əsaslandırmasına xidmət edir. Bu adi identiklik deyil, kollektiv identikliyə təntənə, yəni gündəlik həyatın fövqundə dayanan,ondan fərqli məqamalr xasdır."[4] Doğrudan da xatirələrdə yer alan obrazların bir çoxu müqəddəs mahiyyət daşıyır və tez-tez bayram şəklində yaddaşlarda oyanır. Məsələn, İkinci Qarabağ savaşından sonra 8 noyabrda qeyd olunan Zəfər Günündə müharibə illərindəki hadisələr yenidən aktuallaşacaq və qəhrəman əsgərlərimizin şücaəti sayəsində qarış-qarış alınan torpaqlar unudulmaz məkanlara çevriləcək və xüsusi əhəmiyyət kəsb etməklə təntənə ilə qeyd olunacaq. Bu bayram həm də müharibə xatirələrinin həqiqiliyinin və sarsılmazlığınının təsdiqidir. Heç şübhəsiz, şəhid olanlar, qələbəni mümkün edənlər haqqında xatirələr daha böyük əhəmiyyət kəsb

---

[3]Yuliya Arnautova, *Kultura Vospominaniyai u İstoriya Pamyati*, Krug, Moskva 2006, s.47-55.
[4]Y. Assman, *a.g.*e., s.55.

edir. Onların xatirəsinin yad edilməsi keçmişlə bu gün, nəsillər arasında əlaqə yaradır. Həlak olanların şücatətini yadda saxlayan nəsil bu qəhrəmanlıqlara şərik olur, sanki ataların döyüşdə qazandığı şöhrətdən onlara da pay düşür. Bu yanaşmadan çıxış etsək, qaliblərin zəfəri həm də onlardan sonra gələnlərin qələbəsidir. "Sosial qrup daxilində, həlak olmuş üzvlərinin xatirəsi qrupa mənsub olma hissi baxımından çox vacibdir, çünki zamanla qrupun şahidli olduqları bütün üzvlərinin sahib olduğui tarix və ənənənin bir hissəsidir."[5]

Şübhəsiz, hər dövr yalnız öz mahiyyətinin möhkəmlənməsinə imkan verən tarixi mərhələləri "seçmiş" və bu mahiyyəti şübhə altına alan şeyləri unutdurmağa çalışmışdır. Eyni zamanda, müəyyən bir dövrdə hakim ideologiyanın təsiri də əhəmiyyətli rola malik olmuşdur. "Yaddaş, həssas və magik təbiətinə görə yalnız özünə uyğun olan detallarla ünsiyyət qurur."[6] Türk mədəniyyəti tarixində belə nümunələr çoxdur. Müşahidələr göstərir ki, sosial yaddaşın təhrif edilməsi, xatırlama prosesindəki qüsurla deyil, əksinə xarici(kənar) müdaxilələrlə bağlıdır.Bu məhdudiyyətlərin gözdən keçirilməsi həm də keçmişi formalaşdıran tarixi - mədəni kontekstin araşdırılmasının tərkib hissəsidir. "Hər mədəniyyət öz paradiqmasını- nəyin xatırlanmalı (yəni qorunmalı-D.Z.) və nəyin unudulmalı olduğunu müəyyənləşdirir. "[7] Keçmişdəki hər hansı fakt, yaxud hadisə bu gün də, gələcəkdə də aktuallığını qorumalıdır. Yalnız vacib olanlar xatırlanır və əhəmiyyət verilməyənlər ümumiyyətlə heç olmamış kimi yaddaşdan silinə bilir. Bayramı mədəni yaddaş kontekstində nəzərdən keçirdikdə, bir məqamı da qeyd etmək lazımdır - bayramı qəbul edən və ya rədd edən sosiumun mədəni identikliyi (insanlar, millət, fərd) məsələsi. Mədəni yaddaş istər-istəməz sosial qruplarla əlaqələnir, onu aktuallaşdıran da, hər zaman müasir saxlayan da budur. Mətnlər və mərasimlər mədəni yaddaşda cəmlənir və xüsusi daşıyıcıların köməyi ilə mədəni yaddaş şərh olunur, qorunur və institusionalizasiya olunur. "Mədəni yaddaş dəyərdir və ona relevantlıq (həm də refleks) xasdır, çünki mədəni yaddaşın təfsiri və praktikada tətbiqi sosial qrupun öz obrazını keçmiş haqqında təsəvvürlərini formalaşdırmasına kömək edir."[8] Mədəni yaddaşın daşıyıcıları "qeyri-adi", başqa sözlə, əksəriyyət üçün əlçatmaz olan biliklərə sahib olanlardır. Assman şamanları, bardları, keşişləri, müəllimləri, sənətçiləri, yazıçıları, alimləri və b. bu mədəni yaddaş daşıyıcıları hesab edir. Yazısız cəmiyyətlərdə yaddaş daşıyıcılarının ixtisaslaşması onların yaddaşlarına qoyulan tələblərlə bağlıdır. "Ən yüksək tələb ənənənin sözün

[5]Y.Arnautova, *a.g. e.*, s.47.
[6]Pyer Nora, "Vsemirnoye Torjestvo Pamyati", *Neprikosnovennıy Zapas*, S. 4, Moskva 2005, s.40-41.
[7]Yuriy Lotman, *Statipo Semiotike i Tipologii Kulturı,* Aleksandra, Tallin 1992, s.200.
[8]Otto Eksle, *Kulturnaya Pamyat pod Vozdeystviyem İstorizma,* Odissey, Moskva, 2001, s.39.

tam mənasında yenidən hasil olunması hesab olunur.[9] Tarix sübut edir ki, bayram ənənənin bu cür yenidən dirçəldilmiş məqamıdır və mədəni yaddaş daşıyıcılarının rolu inanılmaz dərəcədə əhəmiyyət kəsb edir.

Keçmişlə bağlı yaddaş daşıyıcılarının özünə məxsusluğunu itirməsi hansı nəticələrə gətirib çıxara bilər? P. Nora hesab edir ki yaddaşın aktuallığı onunla müəyyənləşir ki, "keçmiş gələcəyin qarantı olmaqdan çıxmış və bu səbəbdən yaddaş hərəkətverici qüvvəyə, varislik ümidinə qalmışdır."[10] Son on illikdə Azərbaycanda tarixi yaddaşı "canlandırmaq" üçün aktiv proses gedir və bunun içində bayram mədəniyyəti əhəmiyyətli bir rol oynayır. Buna misal olaraq Azərbaycanda Novruz və Qurban bayramlarının rəsmi dövlət bayramları şəklində qeyd olunmasını göstərmək olar.

**2-Tarixi yaddaşın qorunmasında bayram mədəniyyətinin rolu**

Türk mədəniyyətinin tarixi bizə keçmişdən gələn bəzi məqamları yaddaşdan "kəsmək" və ya "redaktə" etmək üçün dəfələrlə edilən cəhdlərin və onların uğursuzluqla nəticələnməsinin nümunələrini göstərir. Bu, Novruz bayramı ilə bağlı keçmiş sovet epoxasında aparılmış ideoloji-sosial eksperimentlərinin "parlaq" faktı kimi SSRİ-nin Novruz bayramını qeyd edən türk və müsəlman xalqlarının etnokulturoloji yaddaşının acı təcrübəsinə çevrilmişdir.

Adını "dialektik materializm" dünyagörüşü qoyduğu fəlsəfəyə əsaslanan sovet-bolşevik ideologiyası mövcud olduğu XX əsrin 70 ilində sonadək ateist, antidini siyasət yeritdi. Bu siyasət özünü daha qanlı, daha qəddar formada keçən əsrin 20-40-cı illərində göstərdi. Dinin hər cür təzahürlərinə qarşı mübarizə aparan sovet ideologiyası milli bayramların keçirilməsinə qarşı da mübarizə aparırdı. Onlar bu mübarizəni milli bayramların keçmişin, cəhalətin, köləliyin təzahürləri kimi sovet həyat tərzinə zidd və mürtəce xarakter daşıması ilə əsaslandırırdılar. Əslində isə məsələnin mahiyyəti tamamilə başqa idi və sovet ideoloqlarının ruslaşdırma siyasətini ört-basdır etmək məqsədini güdürdü. Onlar bu siyasətlərini maskalamaq üçün sovet mədəniyyətinin "formaca – milli, məzmunca – sosialist" olması şüarından məharətlə istifadə edirdilər. "Yeni dünya" yaradılırdı, bu dünyanın özünün "yeni insanı", "yeni mədəniyyəti", o cümlədən "yeni bayramları" olmalı idi. Bu baxımdan, milli bayramlar "yeni dünyanın" formalaşması yolunda çox böyük əngəl idi. Bayramların sadəcə təqvim hadisəsi olmaması, etnosun tarixi yaddaş potensiyası ilə müəyyənləşmiş etnokulturoloji davranış stereotipi kimi

[9] Y. Assman, *a.g.e.*, s.57.
[10] P. Nora, *a.g.e.*, s.40.

xalqların həyatında "daşlaşması" "yeni dünya" ideologiyasının şüurlara, həyata və məişətə yeridilməsinə mane olurdu. Maraqlı və əlamətdardır ki, yeni mədəniyyəti *şüurlara* yerləşdirmək istəyən sovet ideoloqları öz milli bayramlarından əl çəkmək istəməsə də, amansız və qanlı repressiya maşının önündə fiziki müqavimət gücünü itirmiş və insanların *təhtəl şüurunun* müqaviməti ilə qarşılaşırdılar. *Şuür və təhtəl şüurun bu mübarizəsi* Novruz bayramı ilə bağlı mübarizədə özünün daha parlaq şəkildə göstərirdi. Milli stereotiplərin daşıyıcısı olsa da, repressiya maşınının ölüm qorxusu bütün düşüncəsinə hakim kəsilmiş sovet insanı həmin repressiya maşınına qarşı durmağın birbaşa ölümlə nəticələndiyini şüurlu olaraq dərk etməklə bərabər, eyni zamanda qeyri-şüuri səviyyədə özünün milli bayramına bağlı olaraq qalırdı. Bu məqam "tarixi yaddaş və bayram" münasibətlər modelinin şüuraltı sxemlərə əsaslandığını, kollektiv yaddaşın daşıyıcısı olan insanın bayrama şüurlu yanaşma imkanlarından kənar etnokulturoloji stereotiplərlə müəyyənləşdiyini göstərir.

Novruz, "dünyanın Asiya, Avropa və Afrika kimi üç böyük qitəsində müxtəlif etnosları, xalqları, etnik qrupları, dövlətləri, siyasi quruluşları, ideologiyaları, tarixi və müasir mədəniyyətləri, səmavi və qeyri-səmavi dinləri, adət-ənənələri, dil ailələrini, mədəni arealları, insanlığın keçmişi, bugünü və gələcəyini biri-biri ilə birləşdirən, onlar arasında sosial, siyasi, mədəni, psixoloji harmoniya və sülhü bərqərar edən fenomenal mədəniyyət hadisəsidir. Novruz bayramı özünün ritual-mifoloji strukturuna görə təqvim bayramıdır. Miladi təqvimi ilə mart ayının müxtəlif günlərinə (əsasən 21 mart) təsadüf etməklə qışın, köhnə ilin qurtarmasını, yazın, yeni ilin gəlişini bildirir."[11]

Sovet ideologiyası bütün gücü ilə mübarizə aparsa da, milli bayramları, o cümlədən Novruz bayramını yaddaşlardan silə bilmədi və buna görə də öz siyasətində korrektələr etməyə məcbur oldu. "XX əsrin əvvəllərində-30-cu illər stalinizm repressiyaları dövründə milli mədəniyyətimiz bütövlükdə repressiyalara, bir çox hallarda məhvə məruz qaldığı kimi, bu qanlı təqiblər Novruz bayramından da yan keçmədi. Həmin dövrdə "Novruz" bayramının keçirilməsi qadağan edildi. Lakin bu bayrama islam dininin qalığı kimi baxan bolşevizmin bütün cəhdlərinə baxmayaraq, onu xalqın yaddaşından silə bilmədi. Öz tarixi ənənələrinə sadiq qalan xalq bu mərasimin meydanlarda olmasa da, mənzillərdə keçirilməsinə nail oldu."[12]

---

[11]Seyfeddin Rzasoy, *Muğanlıda Novruz Karnavalı*, Tbiliselebi, Tbilisi 2014, s.21.
[12] Cəlal Gasımov, *Novruz Bayramı Milli-Menevi Deyerlerin Repressiyası Kontekstinde*, Nurlan, Bakı 2009, s.14.

Bu bayrama qarşı SSRİ-nin bütün "Novruz məkanında" aparılmış ideoloji-inzibati mübarizə sonadək qələbə çala bilməsə də, müəyyən nəticələr əldə edildi. Belə ki, Novruz bir bayram kimi əsrlər, minilliklər boyunca ümumxalq bayramı kimi qeyd edilmiş və cəmiyyətin bütün təbəqələrini əhatə etmişdir "Ən qədim dövrlərdən xalqımızın həyatında, adət-ənənələr dünyasında özünə möhkəm yer tutmuş bu bayram təkcə xalq kütlələrinə məxsus məişət bayramı olaraq qalmamış, dövlət səviyyəsində qeyd olunmuş, xalqımızın həyatını bütöv şəkildə əhatə etmişdir. Varlılar da, kasıblar da Novruzu qeyd etmiş, xalqın bütün təbəqələri Novruz bayramında bir araya gəlmiş, bayramı birgə qeyd etmiş, bayram sevinci ümummilli dəyər halına gəlmişdir."[13] Sovet ideologiyasının anti novruz siyasəti özünün tam bəhrəsini verməsə də, *Novruz dövlət bayramı olmaqdan çıxdı* və məişət bayramı səviyyəsinə endirildi. Bu bayramı xalqın milli yaddaşından birdəfəlik silməyin mümkün olmadığını görən sovet ideoloqları bütün sovet epoxası boyunca onun məişət miqyasından kənara çıxmasına imkan vermədilər. Bu prosesdə diqqət çəkən ən mühüm məqam ondan ibarətdir ki, kommunistlər insanların siyasi şüurunu tamamilə öz ideyalarına tabe etməyi bacarsalar da, onların təhtəlşüurla, kollektiv yaddaş arxetipləri ilə müəyyənləşən ictimai psixologiyasını axıradək dəyişməyə müvəffəq ola bilmədilər.

Anti novruz siyasəti yürüdən kommunist-bolşeviklər unudurdular ki:

– Novruz, sadəcə olaraq, bir bayram yox, Azərbaycan xalqının ritual-mifoloji yaddaşının funksional formulu, mifik-kosmoloji düşüncə ilə yaşayan türk etnosunun gerçəkliyə münasibətinin etnopsixoloji mexanizmidir.

– Novruz bayramı əski türkün məkan-zaman haqqında bütün görüşlərinin yaddaş modeli və bu modelin funksional sistemidir.

–Yaddaş hərəkətə gəlməklə etnosu yaşadır: Etnos yaddaş formulları əsasında funksionallaşır – mövcudluğunu qoruyur və inkişaf etdirir.[14] Bu yanaşma tarixi yaddaşın qorunmasında bayram mədəniyyətinin oynadığı rolun bütün funksional-semantik mənzərəsini ortaya qoyur. Buradan aydın olur ki, bayramların etnokulturoloji mahiyyəti etnosun özü özünü milli yaddaş modelləri əsasında sakral ritmlərlə yenidən təşkil etməsini təmin etməkdən ibarədir.

Göründüyü kimi, bayram etnosla onun yaddaşı arasında körpü rolunu oynayır. Maddi aləmin dialektik mahiyyətinə uyğun olaraq özü özünü daim təzələməyə (yenidən yükləməyə) ehtiyac duyan etnos bunu bayramlar vasitəsilə həyata keçirir. Hər bir sistemin təzələnməsi onun

[13]Behlul Abdulla-Tofig Babayev, *Novruz Bayramı Ensiklopediyası*, Şerg-Gerb, Bakı 2008, s.3-4.
[14]C.Gasımov, *a.g.e.*, s.20-21.

özü özünü sakral sxemlər əsasında yenidən yaratması (yükləməsi) deməkdir. Bu – sinergetik özünü yaratmadır. Yaradılış sistem olaraq üç səviyyəni əhatə edir:

1. Etnik vahid;
2. Milli yaddaş sxemi;
3. Ritual.

Etnik vahidin özü-özünü yenidən yaratması bütün hallarda *yaradılış sxeminə* əsaslanır. Həmin yaradılış sxemi etnik vahidin kosmoloji kimliyinin bütün identifikasiya göstəricilərini özündə yaşadan *yaddaş modelidir*. Etnik vahidin özünü həmin yaddaş modeli əsasında təzələməsi (yenidən yaratması) xüsusi məkan-zaman rejimində reallaşdırılır. Bu xüsusi rejim *bayram ritualıdır*. Onun xüsusiliyi özünü iki zamanı (sakral və profan) bir-biri ilə əlaqələndirməsində ifadə olunur. Assmanın qeyd etdiyi "insan həyatının mədəni təkamülün bütün mərhələlərində ikili zaman və ya ikili ölçü qazanmasının" [15] əsasında bayramın bu funksiyası durur.

S.Rzasoy yazır ki, Novruz bayramının "fəlsəfi konsepsiyasına görə, məkan və zaman sistemi (kosmoloji kontinuum) müqəddəs (sakral) və adi (profan) olmaqla iki qatdan təşkil olunur. İlk insan (əcdad), onun ilk əşyası, ailəsi, övladları, yaşadığı ilk zaman sakral sferanı, bütün onlardan törəyənlər profan sferanı təşkil edir. Profan həyat yaşayan insanların həyat və yaşam dinamikası ilk əcdadın ilk zamandakı sakral yaşam presedentlərini özündə təkrarlayır.[16]

Beləliklə, bayramlar etnosla onun yaddaşını bir-birinə qovuşdurur. Lakin bu, keşmişin sadəcə xatırlanması yox, yaddaşın kosmoqonik funksiyasının bayramlar vasitəsilə aktuallaşmasıdır. Burada diqqət çəkən ən mühüm məqam ondan ibarətdir ki, yaddaşın bayramlar vasitəsilə reallaşan kosmoqonik funksiyasının etnosun strukturunda toxunmadığı, əhatə etmədiyi məna sahəsi qalmır. Bu cəhətdən, bayramlarda *cəmiyyət* onun qavrayıb dünya modelinə çevridiyi *təbiət* və *zaman* bütövlükdə əhatə olunur. Yaddaşın bu total əhatələmə miqyası Novruz bayramında bütün mərasimi kompleksi ilə müşahidə olunur. Novruz bayramında olduğu kimi, Qurban bayramının da əsasında sakral yaradılış arxetipi durur.

## 3-Qurban bayramının etnik düşüncədə yeri

Qurban vermə mərasimi və onunla bağlı adətlər ən qədim dövrlərdən bu günə kimi Azərbaycan xalqı arasında canlı şəkildə yaşamaqdadır. İslam dininin qəbul edilməsindən sonra qurbanvermə mərasiminin rolu Azərbaycan cəmiyyətində daha da artmış və möhkəmlənmişdir.

---

[15]Y. Assman*a.g.e.*, s.60.
[16]S. Rzasoy, *a.g.e.*, s.22.

XX əsr sovet dönəmində Qurban bayramı adı altında bilinən mərasim İslam dini ilə bağlı hadisə kimi yerli-dibli inkar olunmasına baxmayaraq, insanlar hər il Qurban bayramının əsas adətini (heyvan kəsmə ayinini) yerinə yetirərək, İslam dininin tələb etdiyi şərtlərə cavab verən heyvanları qurban olaraq kəsmişlər. Azərbaycan müstəqillik əldə etdikdən sonra Qurban bayramı dövlət tərəfindən rəsmi şəkildə qeyd olunmağa başlamışdır. Ona görə də qurbanvermə Azərbaycan ictimai şüur və psixologiyası üçün canlı mərasim hadisəsidir. Bu, xalqımızın həm adət-ənənələrə, həm də İslam dininin hökmlərinə bağlılığından irəli gəlir.

Qurban vermə Azərbaycan etnik-mədəni yaddaşının sakral sxemidir. Azərbaycan xalqı hər il qurbanvermə adətini icra etməklə özünü bu bayramın yaddaş sxemi əsasında yenidən təşkil etmişdir. Elə Qurban bayramının müasir Azərbaycan Respublikasında rəsmi səviyyədə qeyd olunmasının əsasında da bu ideya – xalqın milli birliyinin müqəddəs yaddaş əsasında təzələnməsi durur. Yəni qurbanvermə tarixin mifik başlanğıcında olduğu kimi bu gün də özünün eyni yaddaş funksiyasını yerinə yetirir.

Qurban vermə mərasiminin əsasında qurban heyvanının kəsilməsi durur. Bu heyvan, əslində etnik yaddaşın struktur sxemini təcəssüm etdirir. Cəmiyyət rutin həyat prosesində yaranmış bütün anti struktur halları qurbanvermə ilə aradan qaldırılır. V.N.Toporov qurbanvermə ritualının funksional stukturunu belə təsvir edir:

“**Başlanğıc vəziyyət:** Xaos dünyanı parçalamış, bütün əvvəlki əlaqələr pozulmuş və məhv olmuşdur.

**Vəzifə:** Kosmos onun tərkib hissələri əsasında bərpa edilməlidir. Bunun üçün Kosmosun bu hissələri ilə qurbanın hissələrinin eyniləşdirilmə qaydalarını bilmək lazımdır.

**Üsul:** Kahinin dünyanın mərkəzinə uyğun gələn qurbangahda məzmunu həmin eyniləşdirmələrdən bəhs edən mətni (duanı) qurban üzərində oxumasından ibarət ritual hərəkəti. Və bununla qurban qəbul olunur ki, bunda da Kosmosun sintezini təcəssüm etdirən hərəkəti, onların hamısının ilkin yaradılış aktında bərpasını görmək lazımdır.” [17]

S.Rzasoy Qurban bayramında kəsilən heyvanla bağlı yazır ki, “kosmosla xaos arasında yaranmış ziddiyyət qurbanvermə ilə aradan qaldırılır. Qurban kəsilən heyvan adi bir heyvan yox, cəmiyyətin strukturunu özündə modelləşdirən müqəddəs heyvan – totemdir. Hər bir totem heyvan eyni zamanda qəbilənin əcdadıdır. Qəbilə üçün fövqəladə dərəcədə əhəmiyyətli olan

---

[17]Vladimir Toporov, *O Rituale, Vvvedeniyev Problematiku, Arxaiçeskiy Ritual v Folklornıhi Ranne litaraturnıh Pamyatnikah,* Nauka, Moskva 1988, s.16.

zamanda (yaradılış bayramında) kəsilən totemin ətindən yemək ilin sonunun çatması ilə maddi və mənəvi məhv ərəfəsində olan qəbilənin totem əcdad ətrafında birləşməsi, onun ətindən yeyərək yenidən cana gəlməsi, birləşməsi, bütövləşməsi deməkdir."[18] Qurbanın bu funksiyası qurban vermə ritualını etnosun əsas özünütəşkiletmə mexanizmlərindən biri kimi çıxış etməsini təmin edir. Bunun bariz nümunəsinə Əbülqazi Bahadır xanın "Şəcəreyi-tərakimə" əsərində qorunub qalmış "Oğuznamə" dastanındakı qurbanvermə adətinin nümunəsində rast gəlirik.

**4-"Oğuznamə" dastanında qurban vermə mərasimi**

"Oğuznamədə ilk əcdad Oğuz kağandan qalan səltənətin onun 24 nəvəsi arasında necə bölüşdürüməsindən bəhs olunur. Bu bölgü qurbanvermə ayininin vasitəsi ilə həyata keçirilir. Həmin ayində bir xüsusi qurban – qoyun da kəsilir. Qoyunun başını Oğuz kağanın ölümündəın sonra onun taxtında oturmuş böyük oğlu Gün xana verib deyirlər: "Qoy (qoyunun) bu hissəsi o kəsin olsun ki, o, xan olacaq". Çadırın içəri qapısında Erkil-xoca oturmuşdu. Onun qarşısına qabaq hissəni qoydular və dedilər: "Qoy bu hissə o kəsin olsun ki, o, vəzir olacaq". Daha sonra qoyunun digər hissələrini sağ-sol prinsipi ilə Oğuz kağanın xanın 24 nəvəsinin (tayfa bəyinin) arasında paylayırlar."[19]

Beləliklə, qurbanlıq qoyunun başı, onurğası Gün xana (padşaha) verilir. Qurbanın sağ tərəfi buzuklar adlanan 12 tayfa bəyi, sol tərəfi isə uçuklar adlanan 12 tayfa bəyi arasında bölüşdürülür. S.Rzasoy bu bölgü haqqında P.N.Boratavın əsərinə etdiyi bir redaktor qeydində yazır: "24 Oğuz tayfasından hər birinin şöləndə kəsilən heyvanın bədənində öz "yeri" və bu yerə uyğun payı var idi. Hər bir tayfa ona heyvanın bədəninin hansı hissəsinin pay veriləcəyini qabaqcadan bilirdi. Bunun əsasında qədim oğuzların "totemi yemə" ritualı durur. Totem heyvanın bədəni toplumun strukturunu modelləşdirirdi: cəmiyyətin strukturu heyvanın bədən quruluşunda proyeksiyalanırdı. Totemin bədəni cəmiyyətin, bir növ, xəritəsi statusunda idi. Toplumun üzvü olan hər bir etnik vahid (ailə, klan, tayfa və s.) bu "totem-xəritədə" öz yerini dəqiq bilirdi. Totemi yemə funksional strukturu baxımından qurbanvermədir. Cəmiyyətin struktur vahidlərini təmsil edən nümayəndənin (ailə, nəsil, tayfa... başçısının) etnik ənənələrlə müəyyənləşən zaman ritmi ilə qurban kəsilmiş totem heyvanın ətindən "öz payını" alması ilə onun təmsil etdiyi etnik vahidin

[18] S.Rzasoy, *a.g.e.*, s.90
[19] Ebülgazi Bahadır Han, *Şecerei-Terakime -Türkmenlerin soy kitabı,* (Çev.İ.M. Osmanlı), Azerbaycan Milli Ensiklopediyası, N-PB, Bakı 2002, s.68-69.

(ailə, klan, tayfa və s.) cəmiyyətin strukturunda mövcud olma hüququ yenidən təsdiq və təsbit edilirdi" .

Göründüyü kimi, qurban heyvanı semiotik baxımdan Oğuz cəmiyyətinin mifik strukturunu simvollaşdırır. Hər bir tayfa başçısı qurban ətindən ona düşən payı alıb yeməklə öz tayfasının varlığını Oğuz etnosunun sakral yaddaş sxemi əsasında yenidən təsdiq etmiş olur.

**5-Bayram və mifik keçmiş**

Mədəni yaddaşın oyanışında yaddaşda yenidən yaradılan və mifə çevrilən, eyni zamanda xatirələrdə canlanan obrazlar tarixi faktın özü qədər vacibdir. Mif halına gəldikdə, tarix reallıqdan uzaqlaşmır, əksinə, daimi normativ və formalaşdırıcı qüvvə mənasında gerçəkləşməyin vasitəsinə çevrilir. "Bayram zamanı "əbədiyyətə yüklənmə " cəmiyyəti ötən gözəl dövrlərin xatirəsi fonunda gəncləşməyə, zamana müqavimət göstərməyə və indiki zamanla paralellər aparmağa sövq edir. Ümumiyyətlə, bayramın özününəməxsus bir mifoloji aurası vardır."[20] Zaman keçdikcə bayramın meydana gəlmə tarixi haqqında təsəvvürlər (bu halda söhbət əsl tarixdən deyil, mifoloji tarixdən gedir) genişlənir, onun qeyd olunması ənənələri, bayramın mədəniyyət məkanında və yaddaşda yeri müəyyənləşir. Y. M. Lotman qeyd edir ki, mədəniyyət kollektiv intellekt və kollektiv yaddaş, yəni müəyyən məlumatları (mətnləri) saxlamaq, ötürmək və yenilərini hasil etmək üçün fərdüstü bir mexanizmdir.Bu mənada mədəni məkan, əgər belə demək mümkünsə, ortaq yaddaşın məkanı, yəni bəzi ümumi mətnlərin qorunub yenilənə biləcəyi məkan olaraq təyin edilə bilər. Eyni zamanda, "onların aktuallaşdırılması müəyyən bir məna invariantlığı hüdudlarında baş verir və bu da mətnin yeniləşən zaman kontekstində bütün çoxlu şərh variantlarının olmasına baxmayaraq, özünəməxsusluğunu(identikliyini) qoruduğunu söyləməyə imkan verir."[21] Tarixə, öz keçmişinə yeni baxış və bütövlükdə bəşəriyyətin keçmişinə ənənəvi münasibətin dəyişməsi, bütün ölkələrin mədəniyyət tarixi üçün səciyyəvidir. Fansız tarixçi Pierre Nora yazır: "Biz yaddaşın ümüm dünya təntənəsi dövrünü yaşayırıq."[22] Bu proseslər hansı formada təcəssüm olunmasından asılı olmayaraq, istər tarixin yeni versiyalarının formalaşması, istərsə də onların tənqidi, tarixi, mədəni və ya arxiv materiallarının toplanması və ya məhv edilməsi, bəzi tarixi faktların vurğulanması, bəzilərinin unudulması-bütün bu yanaşmalar müəyyən bir şəkildə keçmişdəki bəzi məqamlara toxunur və bununla da təkcə tarixi

[20]Pol Riker, *Pamyat, İstoriya, Zabveniye*, Gumanitarnaya literatura, Moskva 2004, s.65.
[21]Y. Lotman, *a,g.e.*, s.202.
[22]P. Nora, *a,g,e.*, s.40-41.

yaddaşın fərdi deyil, həm də qlobal aspektdə xüsusi bir qavrayışını formalaşdırır. Mədəniyyət tarixi boyunca davamlı olaraq "yeni" faktlar ortaya çıxır ki, bunlar da sözün tam mənasında yeniliyə sahib olmasalar da əhəmiyyətli hesab olunmuşlar. Buna nümunə kimi 15 sentyabrda qeyd olunan Bakının Qurtuluşu Günüdür.Bayramın əsasında 1918-ci il sentyabrın 15-də Azərbaycan və türk əsgərlərinin Bakını bolşevik-daşnak işğalından azad etməsi dayanır. Belə ki, həmin gün Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad etmişdir. Beləliklə, həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub. Bu hadisə müasir sosial-mədəni və siyasi vəziyyətdə yeni məna qazanmaqla müəyyən semantik yük daşıyır. Bakının Qurtuluşu günü fikrimizcə, keçmişin həm unudulmasına, həm də yenidən qurulmasına bir nümunədir: bir tərəfdən, 15 sentyabr əsas dövlət bayramı statusu qazanır: digər tərəfdən, cəmiyyətdə onsuz da unudulmuş hadisələrin simvolik əhəmiyyətini aktuallaşdırır və yeni mifoloji mahiyyət qazanır.

Bu kimi hallarla əlaqədar olaraq Lotman yazır ki, "yalnız mətnlərin tərkibi deyil, mətnlərin özləri də dəyişir. Keçmiş dövrlərdə mədəniyyətin yaddaşına yığılan mətnləri deşifrə etmək üçün istifadə olunan yeni kodların təsiri altında mətnin strukturunda əhəmiyyətli və əhəmiyyətsiz elementlər bir-biri ilə çulğalaşır."[23] Beləliklə, bayramlar bəzən tarixi faktların, hadisələrin tarixilikdən "çıxarılması" və onlara müasir anlam verərək uyğun mifoloji quruluşla təmin olunması ilə xarakterizə olunur.

[23]Y. Lotman, *a.g.e.*, s. 202.

**Nəticə**

Dünyanın bütün xalqlarının mənşəyində müxtəlif növ bayram və mərasimlər mövcuddur. Heç şübhəsiz, bu bayram və mərasimlər hər bir xalqın mənəvi mədəniyyətinin ayrılmaz hissəsidir. Çağdaş dünyada, o cümlədən Azərbaycanda da, yeni bir bayram mədəniyyətinin yaranması mədəni irsə müraciət və tarixi keçmişin müxtəlif şərhlərini ortaya çıxarmışdır. Tarixi və mədəni yaddaşın yeni variantlarının yaradılması və bayramın köməyi ilə yaddaşda möhkəmlənməsi o zaman baş tutacaqdır ki, ənənədən gələn tarixi-mədəni varislik yalnız rəsmi bayram təqvimində deyil, həm də ictimai şüurda möhkəmlənəcək, əks təqdirdə bayramın semantik mahiyyəti itiriləcəkdir. Sovet dövrü türk söylu xalqaların keçmişinnin inkarına və unutqanlığına əsaslanan bir tarixi istinad vektoru qurmuşdusa, SSRİ-nin süqutundan sonra onun dəyərlər sistemi iflasa uğradı. Yeni müstəqil dövlətin təşəkkülü sosial və maliyyə böhranları ilə müşayiət olundu, bu da uzun müddət dəyərlər sisteminin yenidən formalaşmasına imkan vermədi. Artıq 2000-ci illərin əvvəllərindən bəri bu dəyərlərə qayıtma prosesi müşahidə edilir. Məsələn, indi türk mədəniyyətinin mənşəyində yer alan ənənəvi dəyərlərə qayıtmağın zəruriliyi barədə getdikcə daha çox danışılır. Bunu, xalqın tarixi yaddaşına müraciət edərək bayramda əks olunan ənənəvi mədəni dəyərlərin ictimai şüurda gücləndirmək cəhdi kimi də qiymətləndirmək olar.Yeni bayramların meydana gəlməsi, yeni ənənələrin yaranması sadə bir proses deyil, bayram mədəniyyətinin və fenomeninin gücü, onun həyatla, xüsusi bir vəziyyətlə, cəmiyyətin gerçək problemləri, ehtiyacları, mədəni və mənəvi dəyərləri ilə sıx bağlı olmasıdır. Heç şübhəsiz, bayramlar insanların sosial fəaliyyətini artırır, hər bir insanın və bütövlükdə cəmiyyətin estetik, mənəvi və vətəndaş mövqeyini formalaşdırır. Sosial və siyasi səbəblərdən bir çox insanlar öz adət-ənənələri, baxışları, bayram haqqında təsəvvürlərini özləri ilə götürərək başqa yerlərə köçməli olurlar, yeni bir məkanda kök salmaq məcburiyyətində qalırlar. Bu mənada çağdaş zamanda bayramın humanist mahiyyətinə, xalqları birləşdirə biləcək faktorlara diqqəti cəlb etmək lazım gəlir. Qeyd etmək lazımdır ki, cəmiyyətimizin yeni sosial tərkibi, urbanizasiya, yeni informasiya imkanları, əhalinin artan miqrasiyası, elmi və texnoloji nailiyyətlər və cəmiyyətin həyatındakı digər xüsusiyyətlər xalqların sosial-mədəni inteqrasiyasını sürətləndirir. Bu həm də xalqın sosial və mədəni həyatında ənənəvi ilə yeninin nisbətinə təsir göstərir.Ənənəvi elementlər müasir bayram və mərasimlərə fəal şəkildə daxil edildikdə, cəmiyyətin bayram mədəniyyətinin

dərin sosial-mədəni köklərə malik olduğunu göstərir. Ölkəmizdə yaşayan xalqlarının mərasim və bayram ənənələri çox müxtəlifdir, buna görə də bayram fenomeni tolerantlıq ideyasına əsaslanmalı, etnik və dünya mədəniyyətinin ən yaxşı nailiyyətlərini ehtiva etməlidir.

## Kaynaklar

ABDULLA, B. ve BABAYEV, T., *Novruz Bayramı Ensiklopediyası,* Şerg-Gerb, Bakı 2008.

ARNAUTOV, Y., *Kultura Vospominaniya i İstoriya Pamyati*, Krug, Moskva 2006.

ASSMAN,Y., *Kulturnaya Pamyat,* (çev.M. Sokolskiy), Yazıki Slavyanskoy Kulturı, Moskva 2004.

EKSLE, O., *Kulturnaya Pamyat pod Vozdeystviyem İstorizma*, Odissey, Moskva 2001.

EBÜLGAZİ, B., *Şecerei-Terakime - Türkmenlerin soy kitab),* (Çev. İ.M.Osmanlı), Azerbaycan Milli Ensiklopediyası N-PB, Bakı 2002.

GASIMOV, C., *Novruz Bayramı Milli-Menevi Deyerlerin Repressiyası Kontekstinde*, Nurlan, Bakı 2009.

GADAMER, G., *Aktualnost Prekrasnogo,* İsskustvo, Moskva 1991.

LOTMAN, Y., *Stati po Semiotike i Tipologii Kulturı,* Aleksandra, Tallin 1992.

NORA, P., "Vsemirnoye Torjestvo Pamyati", *Neprikosnovennıy Zapas,* S. 2, Moskva 2005, s. 40-41.

RIKER, P., *Pamyat, İstoriya, Zabveniye*, Gumanitarnaya literatura, Moskva 2004.

RZASOY, S., *Muğanlıda Novruz Karnavalı*, Tbiliselebi, Tbilisi 2014.

TOPOROV, V., *Arhaiçeskiy Ritual v Folklornıhi Ranne literaturnıh Pamyatnikah,* Nauka, Moskva 1988.